# Milli birliyimizin təntənəsi



31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə bağlı "Dünya Azərbaycanlıları Mədəniyyət Mərkəzi"nin hesabat yığıncağı haqda ötən sayımızda ətraflı məlumat vermişdik. DAMM-ın prezidenti, Azərbaycanın xalq şairi Söhrab Tahirin Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə bağlı çıxışı böyük maraq doğurmuş, vətənini sevən, onun taleyi üçün narahat olan hər bir kəsin ruhu ilə səsləşmişdir. Bu çıxışın döyüşkən ruhu həm də qəzetdə çap olunmuş "Vahid ideya ətrafında" başlığı altında son dərəcə aktual, günümüzlə səsləşən, azərbaycançılıq məfkurəsinə xidmət edən yazının ruhu ilə birləşmişdir. Dünyada yaşayan 50 milyondan çox azərbaycanlının Həmrəylik Gününü ifadə edən bu yığıncaqdakı çıxışlar, qəzetdə çap olunmuş yazılar, ilk növbədə ulu öndər Heydər Əliyevin ideyalarının, arzularının həyata keçməsini əks etdirən güzgüdür. Bu, həm də "Məndən başlayır vətən" müqəddəsliyini dərk edən, Azərbaycanın tərəqqisi, çiçəklənməsi uğrunda çarpışan hər bir vətən övladının istək və arzularıdır.

İlin sonuncu günü əslində hər bir vətən övladının hesabatıdır, öz-özünə sualıdır: Mən bu vətən üçün neyləmişəm? Arı pətəyinə bal, qarışqa yuvasına dən daşıdığı kimi, bizim hər birimiz də sevgili Azərbaycanımız üçün nəsə etmişik. Səngərdə ayıq-sayıq dayanan əsgərin də, tarlada çalışan əmək adamının da, yüksək tribunalardan Azərbaycanın haqq səsini dünyaya çatdıran siyasətçinin də, auditoriyada dərs deyən müəllimin də, sənət əsəri yaradan şairin, rəssamın da, beşik başında körpəsinə layla deyən ananın da bir ilham qaynağı var: Azərbaycan!

Vətənin müqəddəsliyini, azadlığın şirinliyini, hər bir kəsin qəlbindəki bütöv, böyük Azərbaycanın nə vaxtsa həqiqət olacağını dərk edənlər bu vətəni yaşadacaq, xoşbəxt gələcəyə aparacaqlar.

Bir zamanlar "Azərbaycan, mənim yatmış baxtım oy!" deyib qürbətdə göz yaşı tökən Almaz İldırımın arzuları bu gün Məmməd Arazın

*Azərbaycan qayalarda bitən bir çiçək,*
*Azərbaycan çiçəklərin içində qaya*

misralarında çiçək açıb.

Azərbaycanın yatmış bəxtini oyadan oğullar cərgəsində olmaq, dünyanın hər yerində gündəlik işi ilə Azərbaycan üçün fədakarlıq göstərmək əsl vətən sevgisidi.

Müasir Azərbaycanımızın qurucusu, memarı ulu öndər Heydər Əliyevin ideyalarını həyata keçirən, Azərbaycanı çiçəklənən diyara çevirən, onu addım-addım böyük qələbələrə aparan Prezidentimiz İlham Əliyevin Vətən uğrunda gördüyü işləri də ayaq üstə alqışlamaq lazımdır. Dağılan, tənəzzülə uğrayan Azərbaycanı qısa bir zaman kəsiyində Qafqazın lider dövlətinə çevirmək hər oğulun işi deyil. Bu, həm də Azərbaycanın beynəlxalq aləmdəki milli birliyinin təntənəsidir.

Azərbaycanın gücü, qüdrəti, həm də dünyada yaşayan 50 milyondan artıq azərbaycanlının haqq bağıran səsidir. Bu səsin, bu gücün qarşısında günbəgün sökülən, dağılan, övladları tərki-vətən olan dilənçi Ermənistan da, onun arxasında dayanan suflyorlar da əvvəl-axır diz çökəcəklər. Min il keçsə də haqq, ədalət qalib gəlməlidir. Yaşadığımız XX əsr bunun canlı, bariz nümunəsi deyilmi?

Yeni – 2015-ci il yurdumuza qədəm qoydu. Xalqımızın taleyində əlamətdar bir il olacaq 2015-ci ildə ölkəmiz ilk Avropa Oyunlarına ev sahibliyi edəcək. Bu, Azərbaycanın dünyada artan nüfuzunun təntənəsidir.

Vətənini sevən hər bir azərbaycanlı bu il harda olmasından asılı olmayaraq müqəddəs bir missiyanı həyata keçirməyi – Azərbaycanın elçisi olmağı öz müqəddəs borcu bilməlidir.

Qoy yurdumuza qədəm qoyan 2015-ci il xalqımıza xoşbəxtlik, əmin-amanlıq, milli birlik, sevgi dolu günlər gətirsin!

Yeni iliniz mübarək!

**Zülfüqar ŞAHSEVƏNLİ,**
**"Respublika".**